**Abdullayeva Gültəkin Ataş qızı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN RABİTƏLİ NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ

***Açar sözlər:*** *nitq inkişafı, rabitəli nitq, kurikulum, ifadə, inşa, esse*
***Key words:*** *speech development, communication speech, curriculum, expression, composition, essay*
***Ключевые слова:*** *развитие речи, связная речь, курикулум, изложение, сочинение, эссе*

Müasir dövrdə məktəbin qarşısında duran ümumpedaqoji problem şagirdlərin nitqini inkişaf etdirməkdir. Bu vəzifə dil və təfəkkürün vəhdəti haqqında təlimdən irəli gəlir.

Dil cəmiyyətin üzvləri arasında ünsiyyət və fikir mübadiləsi silahı, insanlara təsir vasitəsidir. İctimai hadisə olan dil öz funksiyasını yalnız nitqdə yerinə yetirir. Nitqin əsasında isə dili bilmək durur. Məlumdur ki, uşaq məktəbə gələnə qədər müəyyən nitq vərdişlərinə yiyələnmiş olur. Lakin onun nitqinin inkişafı üzərində məktəbdə məqsədəuyğun iş aparılmalıdır. İbtidai siniflərdə şagirdlərə sözdən istifadə etməyi öyrətmək, onlara həyatda zəruri olan nitq vərdişləri vermək lazımdır.

Hal-hazırda, əvvəlki illərdə olduğu kimi, ibtidai siniflər üçün proqram (kurikulum) və dərsliklərdə şagirdlərin şifahi və yazılı nitqinin inkişafına ciddi diqqət yetirilir. Ana dili üzrə hər bir dərsdə nitq inkişafı üzrə iş mühüm yer tutur, mahiyyət etibarilə, hər bir məşğələ nitq inkişafı dərsidir. İbtidai sinif müəllimi elə etməlidir ki, şagirdlər qrammatik nəzəriyyəni, orfoqrafik vərdişləri mənimsəməklə yanaşı, nitq praktikası prosesində sözləri düzgün tələffüz etmək, onları düzgün seçmək və cümlədə işlətmək, cümlə qurmaq, oxuduqları, eşitdikləri və gördükləri haqqında danışmaq, özünün və başqalarının fikrini ifadə etmək bacarığına yiyələnsinlər. [1]

Vahid nitq prosesinin bir-birilə əlaqədar olan iki növü olan şifahi və yazılı nitq, nitq inkişafının əkiz övladlarıdır. Məktəbdə şifahi və yazılı nitqin məqsədəuyğun inkişafı təmin olunmalıdır. Lakin məktəb təcrübəsində müəllimlərin əksəriyyəri nitq inkişafı dedikdə, əsasən, şagirdlərin yazılı nitqi üzərində iş aparmağı nəzərdə tuturlar. Bəzi müəllimlər belə hesab edirlər ki, əsas məsələ yazılı nitq üzərində iş aparmaqdır: əgər şagird ifadə və inşanı müstəqil yaza bilirsə, onun şifahi nitqi öz-özünə inkişaf edəcəkdir. Əlbəttə, bunu məqbul hesab etmək olmaz. Yalnız nitqin hər iki növünə yiyələnmiş şəxsin yüksək nitq inkişafından danışmaq olar.

Şagirdlərin şifahi nitqi üzərində aparılan müşahidələr göstərir ki, onların nitqi çox nöqsanlı olur. Belə ki:

- Ayrı-ayrı söz və səslər yanlış tələffüz olunur;
- Nitqin əsas tələbləri gözlənilmir;
- Qrammatik qaydalar, məntiq və üslub tələblərinə riayət olunmur;
- Nitqdə tüfeyli sözlər işlədilir;
- Yerli şivə xüsusiyyətlərinə yol verilir və s.

Şifahi nitqə verilən tələbləri belə ümumiləşdirmək olar: 1) məzmunlu və inamlı; 2) ardıcıl və məntiqi; 3) qısa, düzgün, emosional və ifadəli danışmaq.

İbtidai siniflərdə nitq inkişafı üzrə aparılan işlərin nəticəsi şagirdlərin öz fikirlərini rabitəli şəkildə necə ifadə etmələri ilə müəyyənləşdirilir. Rabitəli nitq dedikdə, şagirdin öz bilik və yaş səviyyəsinə görə xarici aləmi düzgün dərk etməsi və dərk etdiyini qrammatik, üslubi cəhətdən düzgün ifadə etməsi nəzərdə tutulur. Şagirdlər gördükləri və eşitdikləri, eləcə də həyat təcrübələri haqqında danışarkən yaxud yazarkən, sözləri yerli-yerində dəqiq işlətməyi və cümlələri qrammatik cəhətdən düzgün qurmağı bacarmalıdırlar. Bu nöqteyi-nəzərdən lüğət və cümlə üzərində aparılacaq iş rabitəli nitqin inkişaf etdirilməsi üçün həm hazırlıq mərhələsi, həm də onun mühüm şərtlərindən biridir. Şagird fikrini ardıcıl, məntiqi ifadə edərkən, bu və digər sözü yerində işlətməzsə yaxud cümlələri düzgün qurmazsa, onun nitqi rabitəli ola bilməz. [3]

Rabitəli nitq üzərində işə şagirdin məktəbə gəldiyi ilk gündən başlanmalıdır. Əlifba təlimi dövründə ayrı-ayrı söz, cümlə və mətnlərin məzmunu ilə əlaqədar olaraq onlar şəkillər əsasında cümlələr qurur, danışır, mətnin məzmuna əlavələr edirlər. Suallara cavab üzrə iş şagirdləri müstəqil yazılara, rabitəli nitqin əsas növləri olan ifadə və inşa yazmağa hazırlayır.

İfadə və inşalar şagirdlərin müstəqilliyini və fəallığını artıran mürəkkəb çalışma və iş formalarıdır. Onlar bir sıra ümumi cəhətlərə malikdir: cümlələri, fikirləri ümumi məzmun və ümumi ideya ətrafında birləşdirib rabitəli mətn qurmağı tələb etməklə, təfəkkürün və nitqin inkişafında mühüm rol oynayır.

Orta məktəbdə şagirdləri ifadə, inşa (esse) yazmaq vərdişlərinə yiyələndirmək Azərbaycan dili və ədəbiyyat tədrisinin ən mühüm vəzifələrindən hesab olunur. Çünki ifadənin məzmununu danışmaq və ya yazmaq, habelə müəyyən mövzu üzrə inşa qurub danışmaq və yazmaq savadlı və mədəni insanın həyati vəzifəsi sayılır.

Esse qurub danışmaq və ya yazmağa verilən tələblər əslində inşalara verilən tələblərə uyğundur. Lakin esselər xarakterinə görə inşadan bir qədər fərqlidir. Bəzi linqvistlərə görə, esselər inşanın xüsusi bir növüdür. Bununla belə, yeni metodik və didaktik düşüncədə inşa və esse ayrı-ayrı kateqoriyalar kimi qiymətləndirilir. (4)

"Esse" latın sözüdür, oradan fransız dilinə, fransız dilindən də bir sıra başqa dillərə keçib. İlkin mənası "götür-qoy edərək mühakimə yürütmək" deməkdir. Söz bu mənanı indi də saxlamaqdadır. Müasir anlamda esse müəllifin konkret mövzu ilə bağlı faktları, təəssüratları, fərdi düşüncələri ölçüb biçərək mühakimə yürütdüyü kiçik həcmli, sərbəst kompozisiyalı yetkin əsərdir.

İbtidai siniflərdə on ildən artıq bir müddətdə tətbiq olunan yeni məzmun – Kurikulum təlimi şagirdlərin rabitəli nitqinin inkişafı işində ifadə və inşalarla yanaşı, esse təliminə geniş yer verilir. Azərbaycan dili dərslərində müntəzəm və planauyğun şəkildə esse yazılar tətbiq olunur. Azərbaycan dilindən fənn kurikulumunda, dərslik və metodik vəsaitlərdə esse yazılara xüsusi diqqət yeirilir.

Ümumtəhsil məktəblərinin IV sinfi üçün "Azərbaycan dili" dərsliyinə aid "Müəllim üçün metodik vəsait"də inşa və esse mövzusu haqqında belə məlumat verilir: İnşa və ya esse bir-birinə yaxın yazı fəaliyyətləridir. Bununla belə, inşa ilə müqayisədə esse mövzusu daha konkret olur və burada çox zaman motivasiya xarakterli situasiya ilə verilir. Məsələn:

İnşa mövzusu: "Dostluq", Esse mövzusu: "Dostum mənə əzizdir, ancaq həqiqət ondan da əzizdir".

Situasiya: Təsəvvür et ki, dostun tanımadığın adamla mübahisə edir və səni köməyə çağırır. Söhbətə qulaq asdıqda sənə məlum olur ki, dostun haqsızdır. Bu vəziyyətdə nə edərsən?

Şagirdin özünümüdafiə bacarığını yoxlamaq üçün esse daha münasib iş növüdür. [2, 13]

Esselər II-IV siniflərdə həm öxu materiallarının, həm də dil qaydaları ilə əlaqəli mövzuların tədrisi prosesində qruplarla tədqiqatın aparılması, yaradıcı işlərin tətbiqi, refleksiya mərhələlərində 3-5 dəqiqə ərzində esse yazırlar. Esselər şagirdlərin yaradıcılıq qabiliyyətinin, təfəkkürünün, nitqinin, o cümlədən rabitəli nitqinin inkişafına güclü təsir göstərir. İbtidai siniflərdə şagirdlərə aşağıdakı mövzularda esse yazdırmaq məqsədəuyğun olar:

"Mən xoşbəxtliyi nədə görürəm", "Danışıq qaydaları", "Vaxtın qədrini bilək", "Ramazan (Qurban) bayramı" (II sinif), "Mən nə üçün oxuyuram?", "Yaxşılıq etmək nə deməkdir?", "Möcüzə nədir", "Mədəni danışmaq gözəllikdir" (III sinif), "Qənaətcillik nə deməkdir?", "Mənim dostum", "Milli qəhrəman kimdir?", "Novruz bayramı necə keçirilir?", "Təbiəti qoruyaq", "Sevdiyim peşə", "Tək əldən səs çıxmaz" (IV sinif) və digər mövzular ("Bilik bayramı", "Vətən müqəddəsdir", "Bayraq mənliyimdir", "Kitab bilik mənbəyidir", "Müəllimə hörmət", "İş insanın cövhəridir" və s.)

İbtidai siniflərdə oxu, ifadə, inşa (esse), əməli yazılar təlimi prosesində rabitəli nitqin inkişafına əlverişli imkan yaranır. Rəy inşalar, esse təlimi, hekayə qurmaq, nəzmi nəsrə çevirmək vərdişlərinin formalaşdırılması sahəsində aparılan işlər şagirdlərin rabitəli nitqinin inkişafına təminat verir.

### Ədəbiyyat:

1. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün (I-IV siniflər) Ana dili kurikulumu. Bakı, 2007
2. İbtidai siniflər üçün "Azərbaycan dili" dərslikləri və "Müəllim üçün metodik vəsait". Bakı, 2016
3. Kərimov Y.Ş. İbtidai siniflərdə yazılı inşalar. Bakı, 1998
4. Qurbanov V.T. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2018

### Development of communication speech of pupils in primary school

**Summary**

In the article is mentioned with the development of communication speech in elementary classes in Azerbaijan lessons. Autor comments ways of development of communication speech.

### Развитие коммуникативной речи у учеников начальных классов

**Резюме**

В статье говорится развитие связной речи на уроках Азербайджанского языка в начальных классах. Автор излагает различные пути по развитию связной речи.

**Rəyçi: dos.Ş.Ağakişiyeva**